# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “N-Telekom” publik hüquqi şəxsin və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yenidən təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 08 avqust tarixli 22-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “N-Telekom” publik hüquqi şəxsin və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yenidən təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 08 avqust tarixli 22-VII FR nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 iyul tarixli 47 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nın 1-ci və 3-cü hissələri aşağıdakı redaksiyada verilsin:

“1. “Naxçıvan Telekom” Məhdud Məsuliyyətli Cəmiyyəti.

3. “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti.”.

2. “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 dekabr tarixli 68 nömrəli Qərarının 1-ci hissəsinin “Kollegiyanın üzvləri” bölməsinin 4-cü və 5-ci abzasları aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru

“Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Naxçıvan Telekom” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru.”.

3. “Naxçıvanpoçt” publik hüquqi şəxsin Nizamnaməsinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 noyabr tarixli 164 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 30 ” “ sentyabr ” 2025-ci il

№ 48